# İqtisadiyyat

UOT: 338.43
DOI:10.30546/3006-0346.2024.5.83.043

## ORQANİK KƏND TƏSƏRRÜFATININ İNKİŞAF ETDİRİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ

**ELNUR ALLAHVERDİYEV**
*Azərbaycan Kooperasiya Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru*
*E-mail: allahverdiyev.elnur33@mail.ru*

Hazırda orqanik kənd təsərrüfatlarının yaradılması proseslərinin təhlili aktuallıq qazanmış mövzulardan birinə çevrilmişdir. Öncə, qeyd olunmalıdır ki, orqanik istehsalın tətbiqi və onun getdikcə sürətli inkişafı kənd əhalisi arasında məşğulluq imkanlarını genişləndirmək potensialına malikdir. Orqanik kənd təsərrüfatında sintetik gübrələrin və herbisidlərin istifadəsinin aradan qaldırılması əl əməyindən istifadənin artmasına səbəb olur. Bəzi hallarda orqanik kənd təsərrüfatı istehsalı da əlavə əmək tələb edir. Bu, konkret təsərrüfatların optimal həcmlərindən və yetişdirilən bitkilərin aqrotexniki xüsusiyyətlərindən asılıdır. Hazırda, orqanik məhsulların istehsalı və dövriyyəsi üçün aşağıdakı qaydalar və standartlar fərqləndirilir: IFOAM-ın beynəlxalq baza standartları: müxtəlif ölkələrdə ekoloji standartların müəyyənləşdirilməsi üçün şərtləri birləşdirərək əlaqələndirilmiş sertifikatlaşdırma proqramlarının yaradılmasına yönəlib; Aİ-nin qaydaları; Codex Alimentarius Komissiyasının standartları: orqanik ərzaq məhsullarının istehsalı, emalı, etiketlənməsi və marketinqi üçün təlimatlar; milli orqanik standartlar; orqanik məhsulların ən böyük istehsalçılarının assosiasiyalarının və peşəkar birliklərinin standartları və s. [1, s.546]. Yuxarıda göstərilən qaydaların və standartların əsasını orqanik məhsulların istehsalı üçün müəyyən edilmiş təlimatlar təşkil edir. Bu siyahıya toxum materialına olan tələblər, istifadəsinə icazə verilən maddələrin siyahısı, heyvanların saxlanması şərtləri, heyvandarlıqda yem, habelə bitkiçilikdə orqanik məhsulların istehsalı, daşınması, saxlanması və emalı şərtləri daxildir.

Orqanik kənd təsərrüfatı qlobal tendensiya, kənd təsərrüfatı iqtisadiyyatının ən perspektivli və dinamik inkişaf edən sahələrindən biridir. İEÖ-lərdə orqanik kənd təsərrüfatının səmərəliliyinin təmin edilməsində mühüm rolu orqanik məhsullar bazarının inkişafına yönəlmiş dövlət siyasəti oynayır. Xarici ölkələrdə orqanik bazarın dövlət tənzimlənməsinin təşkili müxtəlif sahələri əhatə edir: orqanik zəmanət sistemi (OGS), orqanik məhsul istehsalçılarına birbaşa dəstək (keçid və sonrakı dövrlərdə), ixtisaslaşmış elmi tədqiqatlara və təhsilə dəstək, məsləhət xidmətləri və s. Orqanik istehsalın inkişafının dövlət tənzimlənməsi sistemi keçən əsrin 80-ci illərində ABŞ və Qərbi Avropa ölkələrində formalaşmağa başlamışdır. Orqanik məhsullar bazarının dövlət tənzimlənməsində mərkəzi yer standartlaşdırma, attestasiya, sertifikatlaşdırma, yoxlama prosedurlarını özündə birləşdirən və vahid qanunvericiliklə tənzimlənən orqanik zəmanət sisteminə verilir [2].

Orqanik kənd təsərrüfatını tənzimləmənin mühüm üsulu orqanik məhsul istehsalçılarına dövlət tərəfindən verilən stimullardır. Bir çox xarici ölkələrin ekoloji yönümlü kənd təsərrüfatı müəssisələrinə dövlət dəstəyinin öz sistemləri var. Belə ki, orqanik əkinçiliyin yaradılmasının ikiillik dövrü ərzində alman fermerləri 1 hektar kənd təsərrüfatı sahəsinə 200-400 avro məbləğində Aİ hökumətindən, eləcə də onların federal əyalətlərindən bir neçə maliyyə mənbələrindən dəstək alırlar. İki ildən sonra yardımın məbləği 1 hektara görə 100-200 avroya endirilir. Fransada fermerlər yalnız orqanik əkinçiliyə keçidin beş ili ərzində əlavə subsidiyalar alırlar, İsveçrədə isə üzvi istehsalçılara verilən subsidiyaların səviyyəsi keçid dövründən sonra da əhəmiyyətli olaraq qalır.

Avstraliya, ABŞ, Kanada, Yaponiya və başqaları kimi inkişaf etmiş iqtisadiyyatı olan ölkələr süd və süd məhsulları, yumurta, uşaq qidası, meyvə və tərəvəz bazarında praktiki olaraq öz seqmentlərini formalaşdırmışlar, orqanik məhsullar bazarı isə Avropanın İEÖ-lərində (Almaniya, Fransa) və ABŞ-da daha çox inkişaf etmişdir. Hazırda orqanik məhsullar bazarı 100 milyard avro həcmində qiymətləndirilir. Maraqlıdır ki, dünyada orqanik istehsalda istifadə olunan torpaqların payı bütün kənd təsərrüfatı torpaqlarının 1%-dən çoxunu təşkil etmir. Belə ki, kimyəvi gübrələrin, qoruyucu vasitələrin, bir sıra baytarlıq preparatlarının, geni dəyişdirilmiş elementlərin, şüalanmanın və digər vasitələrin olmamasına əsaslanan orqanik kənd təsərrüfatı kifayət qədər uzun müddətdir ki, müasir dünyada sürətlə inkişaf edir.

Dünyanın hər bir ölkəsində orqanik məhsulların

yerli bazarının formalaşması və inkişafı prosesləri özünəməxsus xüsusiyyətlərə malikdir. ABŞ-da orqanik əkinçilik ideyası 1960-cı illərə təsadüf edir. Əvvəlcə bu fəaliyyət növü ətraf mühitin çirklənməsinə və təbii sərvətlərdən sui-istifadəyə etiraz forması kimi qəbul edilirdi. Lakin tezliklə həkimlər ərzağın keyfiyyəti ilə insan sağlamlığı arasında sıx əlaqənin mövcudluğunu sübut edəndə və dövlət orqanları orqanik məhsullar bazarının perspektivlərini qiymətləndirəndə yeni növ məhsulun standartlaşdırılması məsələsi gündəmə gəldi. 1970-1990-cı illər ərzində ayrı-ayrı dövlətlər orqanik standartları qəbul etdilər. ABŞ hökumətinin bu təşəbbüslərə cəlb edilməsi orqanik kənd təsərrüfatı istehsalının qanuniləşdirilməsinə və onun hüquqi tənzimlənməsi ilə bağlı məsələlərin həllinin daha yüksək səviyyəyə qaldırılmasına kömək etmişdir.

ABŞ-da orqanik kənd təsərrüfatının yaradılması və orqanik məhsullar bazarının tənzimlənməsi istiqamətində önəmli addım "Orqanik məhsulların istehsalı haqqında" Federal Qanunun qəbulu olmuşdur. Qanun uzun müddətdir ki, qanunvericilik orqanlarında müzakirə olunmuşdur. 1990-cı ildə ABŞ-da qəbul edilən Orqanik Qida Aktı "USDA Organic" loqosu ilə etiketlənə bilən qida məhsullarının emalı və sertifikatlaşdırılması üçün tələbləri müəyyənləşdirmişdir. Sözügedən qanunun müddəalarının reallaşdırılması məqsədilə müvafiq ərzaq məhsullarının istehsalını tənzimləyən Milli Üzvi Proqram yaradılmışdır. 2002-ci ildə ABŞ-da yeni milli orqanik standartlar tətbiq olundu. 2009-cu ildə ABŞ və Kanada arasında orqanik məhsullara olan tələblərin maneəsiz təmin edilməsinin ekvivalentliyi haqqında müqavilə imzalanmışdır ki, bu da hər iki ölkə arasında sertifikatlı orqanik məhsulların rahat hərəkətini təmin etmək və Şimali Amerikada orqanik bazarın sürətli inkişafına kömək etməkdir. Bu, dünyada iki dövlət arasında bu məhsulların istehsalını tənzimləyən ilk qarşılıqlı razılaşma idi. 2012-ci ildə ABŞ-la Aİ arasında orqanik istehsalın ekvivalentliyi müqaviləsi imzalanmışdır. ABŞ-da orqanik sektora nəzarət edən federal agentlik Kənd Təsərrüfatı Departamentidir. Sertifikatlaşdırma və təftiş xidmətləri göstərmək üçün bu strukturun kənd təsərrüfatı satış xidməti 80 strukturu akkreditasiya etmişdir ki, onlardan 32-si xaricdə yerləşir. ABŞ-da yalnız illik dövriyyəsi 5000 ABŞ dollarından çox olan orqanik kənd təsərrüfatı məhsulları istehsalçıları sertifikatlaşdırmadan keçməlidirlər. Bu, əhalini əlavə gəlirlə təmin edən fəaliyyət növü kimi ekstensiv kənd təsərrüfatının inkişafına imkan verir [4, s.50].

Kanada sərin iqlimi sayəsində orqanik əkinçilik üçün ideal ölkədir, bu da pestisidlərin istifadəsini və xəstəlik hallarını azaldır. Kanadada istehsal olunan orqanik məhsulların əksəriyyəti, öncə, ABŞ-a, eləcə də Aİ-yə və Yaponiyaya ixrac olunur. Kanada Kənd Təsərrüfatı və Kənd Təsərrüfatı Məhsulları Nazirliyinə görə, orqanik kənd təsərrüfatı mövcud tələbatı ödəməyə çalışan sürətlə inkişaf edən bazar seqmentidir. Həmin nazirlik ərzaq və kənd təsərrüfatı məhsulları, eləcə də ölkənin bütün təsərrüfatlarında istehsal olunan məhsullar, onların emalı və bazara çıxarılması ilə bağlı siyasət hazırlayır [5, s.29].

Almaniyada Orqanik Kənd Təsərrüfatı Aktı 2002-ci ildə qəbul edilmiş və 2009-cu ildə Aİ-nin tələblərinə uyğunlaşdırılmışdır. Bu ölkə federal struktura malik olduğundan, orqanik kənd təsərrüfatı istehsalı sahəsində Almaniyanın akkreditasiya qurumunun, Dövlət Akkreditasiya Təşkilatının işinə nəzarət edən 16 səlahiyyətli orqan fəaliyyət göstərir, həmçinin ölkədəki 23 monitorinq və sertifikatlaşdırma orqanının işinə cavabdehdir. Bu strukturların bəziləri idxalçıları yoxlamaq səlahiyyətinə malikdir. Orqanik kənd təsərrüfatı və ərzaq məhsulları 2001-ci ildə qəbul edilmiş "Bio-Siegel" milli loqosu ilə etiketlənir. Bundan əlavə, ayrı-ayrı strukturlar və ictimai təşkilatlar (Bioland, Demeter, Naturland, Biokreis) öz standartlarına uyğun olaraq sertifikatlaşdırma aparır və öz etiketlərindən istifadə edirlər.

Avstraliyada orqanik kənd təsərrüfatını sertifikatlaşdıran 8 struktur, onların hər birinin də öz standartları var. Hər iki məhsuldan birinin loqosu özünün və milli olmaqla etiketlənə bilər. Xarici bazarlarda bu təşkilatların kotirovkaları fərqlidir. ACO (Australian Certified Organic – Avstraliyanın Orqanik sertifikatı), OFC (Organic Food Chain – Çinin Orqanik Qida zənciri) və ya NASAA (orth American Securities Administrators Association - Şimali Amerika Qiymətli Kağızlar Administratorları Assosiasiyası) standartlarına uyğun sertifikatlaşdırılmış məhsullar sərbəst şəkildə Aİ-yə, ABŞ-a və Yaponiyaya ixrac edilə bilər. POS (Pacific Organic Standard) standartına uyğun sertifikatlaşdırılmış məhsulların ixracı Aİ və Okeaniyaya reallaşdırıla bilər. Avstraliyanın daxili bazarında sözügedən tipli malların identifikasiyası sistemi yoxdur. Bunu təsdiq edən sənədlərin mövcudluğundan asılı olmayaraq, ölkə daxilində satılan məhsulları orqanik adlandırmaq olar. Sərt

sertifikatlaşdırma qaydaları yalnız ixrac təchizatlarına şamil edilir.

Çində orqanik kənd təsərrüfatının sertifikatlaşdırılması və nəzarəti Kənd Təsərrüfatı Nazirliyinin yurisdiksiyasında fəaliyyət göstərən COFCC (Çin Orqanik Qida Sertifikatlaşdırma Mərkəzi) tərəfindən reallaşdırılır. 2005-ci ildə bu struktur Aİ-nin və IFOAM-ın (Beynəlxalq Üzvi Kənd Təsərrüfatı Hərəkatları Federasiyası) oxşar standartlarına uyğun olaraq ixrac olunan məhsullar üçün milli standartlar hazırlamışdır. 1995-ci ildə Çinin daxili bazarı üçün CGFDC (China Green Food Development Centre - Çin Yaşıl Qida İnkişaf Mərkəzi) istehsal proseslərinə deyil, son məhsullara nəzarət etməyə yönəlmiş müvafiq standartlar hazırlamışdır. Çində orqanik məhsulları sertifikatlaşdıran təşkilatlar özəl ola bilər, lakin onların hamısı CNCA (Certification and Accreditation Administration - Sertifikatlaşdırma və Akkreditasiya İdarəsi) tərəfindən akkreditasiya edilir.

Yaponiyada orqanik məhsulların istehsalının inkişafı 1970-ci illərin ortalarında ətraf mühitin çirklənməsi problemlərinə və onların nəticələrinə həsr olunmuş bir sıra nəşrlərin çap olunmasından sonra təkan aldı. Orqanik bazarın genişlənməsi daha çox orqanik məhsulların müqavilə əsasında becərilməsi ilə bağlı olmuşdur. Başqa sözlə, istehsalçı və istehlakçı etimada əsaslanaraq, fermerin orqanik məhsul istehsal etməyi, istehlakçı isə onları almağı öhdəsinə götürdüyü ortaqlıq yaranır. Bundan əlavə, orqanik istehsalçılar və onlara dəstək verən təşkilatlar ərzaq təhlükəsizliyini müdafiə edən istehlakçı təşkilatları ilə sıx əlaqədədirlər. Çox güman ki, belə etimad və əməkdaşlıq münasibətləri Yaponiyada sertifikatlaşdırılmış orqanik kənd təsərrüfatının çox kiçik miqyasına görə məsuliyyət daşıyır. 1999-cu il Yaponiya Kənd Təsərrüfatı Nazirliyi tərəfindən JAS (Yaponiya Kənd Təsərrüfatı Standartı) orqanik standartlar sisteminin tətbiqi zamanı bu sahədə dönüş nöqtəsi oldu. Orqanik məhsullarla kimyəvi maddələrdən istifadə etməklə yetişdirilən məhsullar arasındakı fərqləri izah etmək üçün davam edən işlərə baxmayaraq, istehlakçılar arasında bu fərqləri başa düşmə səviyyəsinin çox aşağı olduğunu qeyd etmək lazımdır [6, s.58].

Yaponiyada orqanik kənd təsərrüfatı ilə bağlı milli standartlar 2001-ci ildə qanunla qəbul edilmişdir. Yerli sertifikatlaşdırma təşkilatları Kənd Təsərrüfatı, Meşə və Balıqçılıq Nazirliyi tərəfindən akkreditasiya edilmişdir. Yaponiyada orqanik kənd təsərrüfatı torpaqlarının sahəsi aşağı sürətlə artır. 2014-cü ildə orqanik kənd təsərrüfatı təyinatlı torpaqların ümumi sahəsi 9937 hektar olub ki, bunun da 3000-ə yaxını çəltik, 5000-ə yaxını digər bitkilərin becərilməsi, 1100 hektardan çoxu isə meyvə bağlarıdır və onların payı 2009-2200 hektar arasında dəyişib. Bu da əkin sahələrinin ümumi sahəsinin 0,18-0,22%-ni təşkil edib. 2017-ci ildə isə Yaponiyada orqanik kənd təsərrüfatı torpaqlarının sahəsi, keçid dövründə olan torpaqlar da daxil olmaqla, cəmi 9956 hektar təşkil etmişdir. Yaponiyada torpağın strukturunu yaxşılaşdırmaq və eroziyanı azaltmaq üçün xüsusi növ kənd təsərrüfatı texnikasının tətbiqi və minimum şumlamadan istifadə etməklə torpağa təsirin azaldılmasına böyük diqqət yetirilir. Orqanik əkinçilik sistemləri üçün torpağın üzvi maddələri münbitliyin artırılması və torpaq strukturunun yaxşılaşdırılması baxımından əsas aspektdir. Yaponiyada orqanik əkinçiliyin təşviq edilməsi üçün ən çox tətbiq edilən üsullardan biri alaq otları və zərərvericilərə qarşı mübarizədir. Bir neçə il ərzində bir çox ölkələrdə aparılan tədqiqatlar göstərdi ki, alaq otları xüsusilə keçid dövrlərində orqanik fermerlər üçün əsas problemdir. Yaponiyadakı orqanik fermerlər orqanik kənd təsərrüfatında icazə verilən alətlərin bütün arsenalından istifadə edirlər. Yaponiya Kənd Təsərrüfatı Nazirliyinin orqanik sektorun inkişafına münasibəti xüsusilə diqqətə layiqdir. Nazirlik xüsusilə vurğulayır ki, orqanik kənd təsərrüfatı dayanıqlı əkinçilik sistemi olmaqla təbii ekosistemləri qorumaq məqsədi daşıyır və istehlakçıların gözləntilərinə yönəlib. Başqa sözlə, orqanik kənd təsərrüfatı anlayışı ətraf mühitin qorunmasını, təhlükəsiz və sağlam ərzaq məhsulları almağı gözləyən istehlakçıların ehtiyaclarına uyğun məhsullardır. Hindistanda orqanik bazar NPOP (Orqanik İstehsal üzrə Milli Proqram) standartları ilə tənzimlənir ki, bu da İsveçrə və Aİ tərəfindən öz yerli standartlarına oxşar olaraq tanınır. Hindistanda sertifikatlaşdırma dövlət qurumları tərəfindən akkreditə olunmuş 20 təşkilat tərəfindən həyata keçirilir.

Qazaxıstanda orqanik məhsulların istehsalı hələ 2012-ci ildə perspektivli fəaliyyət növü kimi tanınıb, onun reallaşdırılması ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılmasına və onun tədarükçülərinin ixrac potensialının inkişafına kömək edir. Bu növ malların istehsalının və dövriyyəsinin genişləndirilməsi üçün şəraitin yaradılmasına Qazaxıstanın 2013-2020-ci

illər üçün ASK-nın inkişafı üzrə "Aqrobiznes-2020" Proqramının qəbul edilməsi kömək etmişdir. Bu sənəd yerli ASK-nın qarşısında duran ən önəmli vəzifələrdən biri kimi orqanik məhsulların istehsalının hüquqi, iqtisadi və təşkilati şərtlərini, habelə bununla bağlı tələb və standartların, sertifikatlaşdırma, nəzarət prosedurlarını müəyyən edən normativ hüquqi aktların hazırlanmasını müəyyənləşdirir. Orqanik istehsalın inkişaf perspektivləri 2013-cü ildə təsdiq edilmiş 2013-2020-ci illər üçün Qazaxıstanın "yaşıl" iqtisadiyyata keçidi Konsepsiyasında da göstərilib. 2015-ci ilin sonunda Qazaxıstan Respublikasının Parlamenti "Orqanik məhsulların istehsalı haqqında" qanun qəbul edib və bu qanun 2016-cı il iyulun 1-də qüvvəyə minmişdir.

Dünyada orqanik məhsulların əsas paylama kanalı əsasən supermarketlərdir. Fransa və ABŞ-da orqanik məhsullar ixtisaslaşmış mağazalarda da təqdim olunur. Təsərrüfat mağazalarında, bazarlarda və sairdə orqanik məhsulların birbaşa satışı da Fransa üçün xarakterikdir. Onlayn ticarət Böyük Britaniyada ən populyardır. Aİ ölkələri arasında orqanik məhsulların dövriyyəsində birinci yeri Almaniya tutur, burada orqanik istehsala genişmiqyaslı maliyyə dəstəyi verilir. Alman orqanik fermerləri Aİ-dən və onların federal dövlətindən yardım alırlar. Əksər orqanik təsərrüfatlar ekoloji birliklərin üzvləridir ki, bu da onlara sertifikatlaşdırmadan keçməyə və məhsullarını ittifaqa, torpağa və ya dövlətə məxsusluq nişanına uyğun olaraq etiketləməyə imkan verir [7, s.462].

## YEKUN

Beləliklə, təhlillərimiz göstərir ki, zaman keçdikcə bütün dünyada orqanik məhsul istehsalçılarının mövqeyi xeyli möhkəmlənib. Bu vəziyyət daha çox 1990-cı illərin əvvəllərindən onlara göstərilən dövlət dəstəyi ilə bağlıdır.

• Kənd təsərrüfatının yeni iqtisadi şəraitə uyğunlaşdırılması prosesində onun vəziyyətinə təsir edən iqtisadi amillər - dövlət dəstəyinin səviyyəsi, qiymət siyasəti, güzəştli vergitutmanın mövcudluğu, kreditləşmə şərtləri və s. var.

• Orqanik kənd təsərrüfatı istehsalı standartlarının işlənib hazırlanması və qəbulu onun strukturlarına yeni məhsulların dünya bazarlarına çıxarılması və orada yer alması üçün əlavə imkanlar verib.

• Orqanik kənd təsərrüfatı haqqında qanunlar sertifikatlaşdırma üsullarının işlənib hazırlanmasına, orqanik məhsulların və xammalının təhlükəsizliyinin və keyfiyyətinin göstəricilərinin formalaşdırılmasına, onların dövriyyəsinin bütün mərhələlərinin (istehsal, saxlanma, daşınma, satış) hüquqi və iqtisadi əsaslarını müəyyənləşdirməyə, ərzaq bazarlarında ədalətli rəqabət və müvafiq iş şəraitinin yaradılmasına şərait yaradır və s.

**Açar sözlər:** *orqanik kənd təsərrüfatı, beynəlxalq təcrübə, dünya ölkələrində orqanik kənd təsərrüfatı, ekoloji təmiz kənd təsərrüfatı məhsulları, dövlətin kənd təsərrüfatı siyasəti, orqanik kənd təsərrüfatı modelinin formalaşdırılması, orqanik kənd təsərrüfatının təşkili problemləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Кибенко, Е.А. Зарубежный опыт развития органического (экологического) сельского хозяйства / Е. А. Кибенко // Инновационные направления интеграции науки, образования и производства : Сборник материалов IV Международной научно-практической конференции, – Феодосия, – 10–14 мая 2023, – с. 545-549.*

*2. Архипова, В.А. Органическое сельское хозяйство: зарубежный опыт и российские перспективы / В.А. Архипова, А.Г. Кулагина // Успехи современной науки и образования. – 2017. – Т. 3, № 3, – с. 60-62.*

*3. The World of Organic Agriculture Statistics and Emerging Trends 2024, – 356 p. [Electronic resource] / URL: https://www.fibl.org/fileadmin/documents/shop/1747-organic-world-2024_light.pdf/.*

*4. Стешиц, О. Государственное регулирование становления и развития органического сельского хозяйства (зарубежный опыт) / О. Стешиц // Аграрная экономика. – 2017. № 7(266), – с. 47-57.*

*5. Lətifova, E.N. Südlük maldarlıqda damazliq işinin dövlət tənzimlənməsi. Kənd təsərrüfatının iqtisadiyyatı, – 2021. № 3 (37), – s.27-42.*

*6. Таранов, И.Н. Опыт Японии в развитии органического сельского хозяйства / И.Н. Таранов, А.А. Ажибеков // Известия ВУЗов Кыргызстана. – 2019. № 8, – с. 57-61.*

*7. Свечникова, Т.М. Органическое сельское хозяйство: сущность и тенденции развития. Московский экономический журнал, – 2019. №8, – с.457-463.*

**ЭЛЬНУР АЛЛАХВЕРДИЕВ**
***Доцент Азербайджанского Университета Кооперации, доктор философии по экономике,***
***E-mail:allahverdiyev.elnur33@mail.ru***

## МЕЖДУНАРОДНЫЙ ОПЫТ РАЗВИТИЯ ОРГАНИЧЕСКОГО СЕЛЬСКОГО ХОЗЯЙСТВА

В статье исследован опыт стран мира по развитию органического сельского хозяйства в условиях обострения глобальных продовольственных проблем. Особое внимание уделено совершенствованию механизмов и инструментов формирования и развития органического сельского хозяйства. Проанализированы и обобщены особенности модели развития органического сельского хозяйства отдельных стран. Обоснована важность глубокого изучения международного опыта и применения отдельных примеров опыта в реализации новых задач, возникающих в связи с глобальными угрозами, в том числе расширения производства экологически чистой сельскохозяйственной продукции. Сделаны обобщения по реализации международного опыта, связанного с развитием органического сельского хозяйства.

**Ключевые слова:** *органическое сельское хозяйство, международный опыт, органическое сельское хозяйство в странах мира, экологически чистая сельскохозяйственная продукция, государственная аграрная политика, формирование модели органического сельского хозяйства, проблемы организации органического сельского хозяйства.*

**ELNUR ALLAHVERDIEV**
***Ass.professor of Azerbaijan Cooperation University, Doctor of Philosophy in Economics,***
***E-mail: allahverdiyev.elnur33@mail.ru***

## INTERNATIONAL EXPERIENCE ON THE DEVELOPMENT OF ORGANIC AGRICULTURE

In the article, the experience of the countries of the world on the development of organic agriculture under the conditions of increasing global food problems was investigated. Emphasis has been placed on better mechanisms and tools for the formation and development of organic agriculture. The characteristics of the organic agriculture development model of individual countries have been analyzed and summarized. The importance of the in-depth study of international experience and the application of individual examples of experience in the implementation of new tasks arising from global threats, including the expansion of the production of ecologically clean agricultural products, is substantiated. Generalizations were made on the strategic points and implementation of the international experience related to the development of organic agriculture.

**Key words:** *organic agriculture, international experience, organic agriculture in the countries of the world, environmentally friendly agricultural products, state agricultural policy, formation of organic agriculture model, problems of organizing organic agriculture.*